# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## İpoteka limitlərinin artırılmamasının səbəbləri nələrdir?



5

# Ədalət susanda

Qarabağın 30 illik işğalı, böyük güclər və unudulan hüquq



2


SƏS

№ 239 (7407)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

26 dekabr 2025-ci il.
Qiymәti 60 qəpik


# Azərbaycanın dinamik və sürətli inkişafı

Prezident İlham Əliyev: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə, haqlı olaraq, fəxr edə bilər"



3

## Bayram süfrəsini qurmaq üçün bir ailəyə nə qədər pul lazımdır?



8

## Plasenta: tibbi tullantı həyat xilas edə bilərmi?



7

## İynə saplaya bilməyən qızlar



7

## Ərəblər bu qapıçı üçün "Real"a 90 milyon avro təklif edir!



8

## Tövlə icazəsindən Bakı tıxacına BİR ADDIMLIQ YOL!



6

# Ədalət susanda

## Qarabağın 30 illik işğalı, böyük güclər və unudulan hüquq

Ermənistan-Azərbaycan münaqişəsi XX əsrin sonlarında, Sovet İttifaqının zəiflədiyi dövrdə başladı. 1988-ci ildə keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"ndə ərazi statusu ilə bağlı etirazlar genişləndi və erməni millətçiləri vilayətin Ermənistana birləşdirilməsini iddia etdilər. Bu proses Sovet rejiminin çöküşü ilə nəticələndi və münaqişə 1991-ci ildə müstəqil olduqda hərbi müstəviyə keçdi. 1992-1994-cü illər müharibəsində Ermənistanın dəstəklədiyi separatçı qüvvələr Azərbaycan ərazilərinin təxminən 20 faizini işğal etdi və 1 milyondan çox Azərbaycan vətəndaşı etnik təmizləməyə məruz qaldı.

Beynəlxalq hüquqa görə "Dağlıq Qarabağ" Azərbaycan Respublikasının tərkib hissəsi hesab olunur və münaqişə Azərbaycanın suverenliyinə qarşı təcavüz kontekstində qiymətləndirilir. BMT Təhlükəsizlik Şurası və digər qurumların qətnamələri də bu mövqeyi təsdiqləyir və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edirdi.

Əslində, münaqişə birbaşa olaraq iki dövlət arasında deyil, daha mürəkkəb beynəlxalq dəstək və geosiyasət kontekstində



aparılıb. İşğal dövründə Ermənistanın dəstək aldığı əsas komponentlər, daha dəqiq desək güclər aşağıdakılardır.

### Rusiya və...

Rusiya Ermənistanın ən uzunmüddətli və əsas hərbi və siyasi müttəfiqi olub. Sovet dönəmindən sonra da Rusiyanın Ermənistana hərbi texnika, silah təminatı və təhlükəsizlik təminatı olaraq dəstəyi diqqət mərkəzində olub. 1990-cı illərdə Rusiyanın Ermənistana çoxlu sayda silah göndərdiyi bildirilir və dəqiq faktlarla sübut edilir. Bu, Moskvanın Cənubi Qafqazdakı təsirini saxlamaq strategiyasına xidmət edirdi. Rusiya həm də Ermənistanın birbaşa müttəfiqi kimi bu ölkənin ərazisində hərbi baza yerləşdirmişdi və indi də mövcud olan hərbi gücü vasitəsilə Ermənistanı özünün siyasi orbitində saxlamağı bacarmışdı.

### Digər silah təchizatçıları

Ermənistan müxtəlif zamanlarda əlavə silah təminatçılardan da dəstək alıb. Məsələn, Hindistan, Yunanıstan, Suriya və bəzi



başqa dövlətlərdən müəyyən hərbi təchizat alındığı qeyd olunur. Son illərdə Rusiya ilə münasibətlərdə yaranan tarifli gecikmələr səbəbindən Ermənistan bəzi silah alışlarını daha müxtəlif mənbələrdən etməyə çalışıb.

### Qismən siyasi və diaspor dəstəyi

Qərb ölkələrində, xüsusən Fransada böyük erməni diasporu var və bu diaspora vasitəsilə erməni mövqeyi siyasi təsir qazanıb. Bu, Fransanın bəzi hərbi və siyasi dəstək addımlarına (məsələn, müəyyən silah səfərləri) səbəb olub. Avropa və ABŞ daxilində də müxtəlif diaspor təşkilatları vasitəsilə Ermənistanın mövqeyini dəstəkləyən siyasi və PR fəaliyyətləri müşahidə olunur. "Beynəlxalq sənədlərə niyə istinad edilmirdi?" sualının cavabıbı da burada axtarmaq lazımdır.



Rəsmi beynəlxalq sənədlərdə, BMT Təhlükəsizlik Şurasının qətnamələrində Ermənistanla bağlı konkret tələblər vardır və Azərbaycanın ərazi bütövlüyü təsdiqlənmişdir. Lakin bu qətnamələrin icrası praktikada həyata keçirilmədən arxivə göndərilmişdir. Çünki Təhlükəsizlik Şurasında daimi üzvlər



arasında fərqli geosiyasi maraqlar mövcuddur və bu, təsirli icra mexanizmlərinin hazırlanmasına maneə törədir. Belə ki, bəzi daimi üzvlər, böyük güclər müxtəlif strateji səbəblərlə bu cür sənədləri güclü şəkildə yerinə yetirməyə təkan verməyiblər.

1993-cü ildə qəbul edilmiş qətnamələrin icrası beynəlxalq güclərin maraqları və regiondakı strateji prioritetləri ilə toqquşub, bu isə bəzən sənədlərin ardıcıl olaraq tətbiq edilməməsinə səbəb olub. Xüsusilə Rusiya kimi güclər, həm Ermənistana silah təmin edərək, həm də regiondakı təsirini saxlamaq üçün bu məsələyə öz geosiyasi strategiyası baxımından yanaşıb.

Minsk Qrupu kimi beynəlxalq vasitəçilik səyləri də illər boyu münaqişənin sülh yolu ilə həllinə çalışdı. Lakin status-kvonun qalıcı olması, danışıqlar prosesinin uzun müddət nəticə verməməsi, sənədlərin və qərarların effektiv olması əvəzinə uzanması, beynəlxalq hüququn normativ sisteminin yetərincə tətbiqini çətinləşdirib.

### İkili standartlar və siyasi maraqlar

Bəzi Qərb ölkələri və beynəlxalq təşkilatlar, münaqişə məsələsində humanitar narahatlıqları ön plana çıxarıb və prosesə yanaşmada ikili standartlar tətbiq edildiyi iddialarını gündəmə gətiriblər. Bu, əsasən diaspor siyasi təsirləri, geosiyasi maraqlar və liberal demokratiya diskursu ilə bağlıdır. Bu baxımdan bəzi qərarlar və yanaşmalar reallığı tam əks etdirməyə bilər, bunun da səbəbləri geosiyasi üstünlüklər və daxili siyasi maraqlardır.

Ermənistan münaqişə ərzində əsasən Rusiya və digər bəzi silah təminatçılarının və qismən siyasi dəstəyin nəticəsində öz hərbi mövqeyini saxlayıb. Bu dəstək, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olmamaqla yanaşı, geosiyasi maraqlar və strateji balansların nəticəsi olaraq beynəlxalq sənədlərin tətbiqində ciddi çətinliklərə yol açıb. Həmçinin bəzi güclər münaqişəyə yanaşmada ikili standartlardan istifadə edib ki, bu da sülh prosesinə ciddi təsir göstərib.

### İşğal reallığı

Ermənistan-Azərbaycan münaqişəsinin uzun illər "mübahisəli ərazi" kimi təqdim edilməsi beynəlxalq siyasətdə terminoloji manipulyasiyanın klassik nümunəsidir. Beynəlxalq hüquqa görə Dağlıq Qarabağ və ətraf 7 rayon Azərbaycanın suveren əraziləri idi. Bu fakt BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri ilə açıq şəkildə təsbit olunmuşdu. Lakin beynəlxalq aktorların davranışı göstərdi ki, hüquqi norma siyasi marağa tabe olduqda tətbiq edilmir. Eyni zamanda "münaqişə" anlayışı "işğal" anlayışını kölgədə saxladı, status-kvo bəzi güclər üçün daha sərfəli oldu. Bu isə beynəlxalq sistemdə hüququn deyil, güc balansının həlledici rol oynadığını bir daha sübut etdi.

"Ermənistan niyə tək deyildi" sualına da cavab tapılır. Rusiya Federasiyasının Ermənistanı dəstəkləməsi emosional və ya ideoloji deyil, tamamilə strateji idi. Əsas motivlər Cənubi Qafqazda hərbi-siyasi dominantlıq, Ermənistanın təhlükəsizlik baxımından Moskvadan asılı saxlanması, Azərbaycan üzərində təzyiq aləti kimi münaqişənin qorunması, Türkiyənin regionda təsirinin balanslaşdırılması. Rusiya üçün münaqişənin həlli yox, idarə olunması vacib idi. Buna görə də Ermənistan silahlandırılırdı, Azərbaycanla balanslı vasitəçi görüntüsü yaradılırdı, BMT qətnamələrinin icrası isə faktiki olaraq dondurulurdu. Bu, klassik "vasitəçi kimi qalmaq üçün problemi həll etmə" siyasətidir.

Qərb dövlətləri rəsmi bəyanatlarda ərazi bütövlüyünü dəstəkləsələr də, praktikada neytrallıq adı altında status-kvonu qorudular. Bunun səbəbləri diaspor amili, xüsusilə Fransa və ABŞ-da güclü erməni diasporu parlamentlərə təsir, qətnamə və bəyanatların tonunun dəyişməsi ilə Ermənistanın "təhlükə altında olan tərəf" kimi təqdim olunmasına gətirib çıxarmışdı.

Qərb üçün əsas prioritet Rusiyanı regiondan tam sıxışdırmamaq, Azərbaycanı Rusiya ilə qarşıdurmaya sürükləməmək, münaqişəni "idarə olunan risk" səviyyəsində saxlamaq idi. Nəticədə beynəlxalq hüquq siyasi komforta qurban verilirdi.

### Beynəlxalq hüququn struktur problemi



BMT TŞ qətnamələri hüquqi baxımdan məcburi olsa da, icra mexanizmi yox idi. Daimi üzvlərin veto və maraqları ilə bloklanırdı, sanksiya iradəsi selektiv tətbiq olunurdu. Məsələn, Küveyt işğal ediləndə dərhal hərbi müdaxilə edildi, Azərbaycan işğal ediləndə isə 30 il "narahatlıq" ifadə olundu. Bu, beynəlxalq sistemdə ikili standartların institusional problem olduğunu göstərirdi və indi də var.

ATƏT-in "Minsk qrupu" faktiki olaraq münaqişəni həll etmədi, Ermənistana vaxt qazandırdı, işğalın legitimləşdirilməsinə xidmət edən "sonsuz danışıqlar" mühiti formalaşdırmağa cəhd etdi. Həmsədrlərin (Rusiya, Fransa, ABŞ) heç biri Ermənistana real təzyiq göstərmədi, qətnamələrin icrasını tələb etmədi. Bu isə beynəlxalq vasitəçiliyin obyektivlik yox, maraq balansı üzərində qurulduğunu sübut etdi.

Ermənistanın işğalı tez-tez "öz müqəddəratını təyin etmə", "tarixi ədalət", "təhlükəsizlik ehtiyacı" kimi anlayışlarla pərdələnirdi. Halbuki, öz müqəddəratını təyin etmə ərazi bütövlüyünü poza bilməz. Etnik əsaslı ayrılma beynəlxalq hüquqla tanınmır, etnik təmizləmə heç vaxt legitim arqument ola bilməz. Bu anlayışların selektiv tətbiqi beynəlxalq sistemin normativ böhranını ortaya qoydu.

### 2020-ci il reallığı

Azərbaycanın 2020-ci ildə hərbi-siyasi qələbəsi göstərdi ki, beynəlxalq hüquq kağız üzərində qalanda dövlətlər onu öz gücü ilə reallaşdırmağa məcbur olur. Bu, acı, lakin real nəticədir. Beynəlxalq hüquq yalnız onu müdafiə edəcək siyasi və hərbi iradə olduqda işləyir.

Beləliklə, Ermənistanın işğal dövründə aldığı dəstək hüquqi deyil, siyasi idi, ədalətə deyil, marağa söykənirdi. Bu da beynəlxalq sistemin zəifliklərini açıq göstərdi. Bu proses sübut etdi ki, kiçik dövlətlər üçün beynəlxalq hüquq təminat yox, imkan çərçivəsidir. Ərazi bütövlüyü yalnız diplomatiya ilə deyil, güc balansı ilə qorunur. İkili standartlar müasir beynəlxalq münasibətlərin struktur problemidir.

**V.VƏLİYEV**

# Azərbaycanın dinamik və sürətli inkişafı

## Prezident İlham Əliyev: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə, haqlı olaraq, fəxr edə bilər"



Azərbaycan regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Dövlət başçısı İlham Əliyevin 21 il əvvəl - 11 fevral 2004-cü il tarixdə imzaladığı Dövlət Proqramının əsas qayəsi regionlarda sahibkarlığın inkişafını sürətləndirmək və oradakı əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan kifayət qədər səmərəli istifadə etməklə iqtisadiyyatın tarazlı və davamlı inkişafına, infrastrukturun müasirləşdirilməsinə, əhalinin məşğulluğunun artırılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarət idi. Bölgələrdə yaşayan vətəndaşların zəruri arzu və istəkləri, eləcə də onları illərdən bəri narahat edən, qayğılandıran sosial problemlərin həlli də proqramda dolğunluğu ilə əksini tapmışdır. Azərbaycan hökuməti dövlət proqramı əsasında 2004-2008-ci illər ərzində regionlarda kənd təsərrüfatının, qeyri-neft sektorunun inkişafına yardım göstərmiş, o cümlədən emal müəssisələrinin yaradılmasını, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını və bütün bunların fonunda çoxlu yeni iş yerinin açılmasını təmin etmişdir. Dövlət proqramı regionların tarazlı inkişafına yönəlməklə yanaşı, həm də yerlərdə enerji infrastrukturunun, nəqliyyat-kommunikasiya sisteminin bərpası, habelə elmi-texniki tərəqqi, mədəni yüksəliş, müasir informasiya texnologiyalarının tətbiqi məsələlərini özündə ehtifa edir.

### Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrildi

Azərbaycan regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına təkan vermişdir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilmədidir. Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. Bu illər ərzində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-ə çatıb. Bu illərdə 10 hava limanı tikilib və yenidən qurulub. Həmin müddətdə əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 760-a yaxın tibb müəssisəsi tikilib və ya təmir olunub, çoxlu sayda körpü və tunellər, yollar istifadəyə verilib. İstehsal və sənaye müəssisələrinin çoxu bölgələrə aiddir. Hazırlanan növbəti dövlət proqramı da regionların inkişafının müasir tələblərə uyğunlaşdırılmasına hesablanmışdı.

### Beynəlxalq standartlara əsaslanan yeni model

Azad edilmiş torpaqların dirçəlişi və reinteqrasiyası ümumilikdə ölkənin iqtisadi potensialının artmasına geniş imkanlar vəd edir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə buraya yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri xüsusi qeyd edilməlidir. Bölgədə fəaliyyət göstərən müəssisələr üçün əlverişli investisiya mühiti yaradılıb. İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından azad edilib. Regionda fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən də azad olunub. Sahibkarların maliyyəyə çıxış imkanlarının artırılması məqsədilə kreditlərə dövlət zəmanətinin verilməsi və faizlərin subsidiyalaşdırılması ilə bağlı elektron platforma hazırlanır. Qlobal iqtisadiyyatda "yaşıllaşma və karbonsuzlaşma" meylləri qeyri-resurs iqtisadiyyatının inkişafı üçün imkanlar yaradır. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzurun əhəmiyyətli potensialı var və bu, xarici investorların marağını cəlb edir. Artıq soydaşlarımız azad edilmiş ərazilərdə salınan yeni yaşayış məskənlərində məskunlaşmağa başlayıblar. "Ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi bölgədə rahat və müasir həyat şəraitini təmin edib.

Bu gün işğaldan azad olunan Şuşa, Zəngilan, Ağdam kimi ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri görülür və müasir tələblərə uyğun olaraq qurulur. Eyni zamanda, Kəlbəcər kimi ucqar rayonlar da diqqətdən kənarda qalmayıb. Pilot layihələr kimi Kəlbəcər rayonunda arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərə lazımı şərait yaradılıb. Həmin sakinlər öz təsərrüfatlarını yaradıb və işə başlayıblar. Laçında Güləbird su elektrik stansiyası istifadəyə verilib. Şuşada "Xarıbülbül", "Qarabağ" otellərinin istifadəyə verilməsi, Füzuli Beynəlxalq Hava Limanının açılışı, yol infrastrukturunun qurulması və s. qısa bir zaman məsafəsində reallaşan layihələrdir ki, bütün bu və ya digər layihələr Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəricisidir. bütün bunlarla yanaşı, Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonasına çevriləcək. Müharibədən beş il ötməsinə baxmayaraq, qətiyyətlə deyə bilərik ki, bu gün işğaldan azad edilmiş ərazilərimizdə misli görünməmiş bərpa və quruculuq işləri aparılır. Əlbəttə ki, işğaldan azad olunan ərazilərin bərpası böyük maliyyə vəsaiti və resursların səfərbərliyini tələb edən proses olsa da ölkəmizin iqtisadi gücü bütün bunlara imkan verir. Bildiyimiz kimi, "Ağıllı kənd" layihəsi müasir çağırışlara cavab verən və beynəlxalq standartlara əsaslanan yeni bir modelidir. Layihə Zəngilanın 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərini əhatə edir.

### Qarabağ və Şərqi Zəngəzurda abadlıq quruculuq işləri

İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl görülən işlər çərçivəsində yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar əsasında yol infrastrukturunun təzələnməsi daha da sürətləndirilir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır.

İrimiqyaslı layihələr sırasında beynəlxalq hava limanları, "yaşıl enerji" zonasının yaradılması məqsədilə pilot layihələr qismində bəzi yerlərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqinə start verilməsi və s. ərazilərdə aparılan abadlıq quruculuq işləri Böyük Qayıdışın təntənəsidir. Suqovuşanda yol infrastruktu, abadlıq-quruculuq işləri də davam etdirilir. Azərbaycanda ilk dəfə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq müasir izolyasiyalı, kənar təsirlərdən mühafizəli və istismar xərcləri daha az olan kabel xəttinin təqdimatı, Suqovuşan qəsəbəsində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışı görülən işlərin miqyasının göstəricilərindəndir. Xüsusi olaraq qeyd etməliyik ki, işğaldan azad edilən ərazilərdə hərbi hissələrin açılması, ən müasir texnikalarla təchizatı Azərbaycanın hərbi təhlükəsizliyinin xüsusi diqqətdə saxlanılmasının göstəricisidir. Suqovuşanda açılışı olan hərbi hissənin ərazisində nəzarət-buraxılış məntəqəsi, qərargah binaları, əsgər yataqxanaları, tibb məntəqəsi, qazanxanalar, mağaza, 174 nəfərlik yeməkxana binası yaradılıb.

Onu da bildirək ki, Suqovuşanda Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməli qoyulub. Suqovuşan qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binası təmir olunur. Əlbəttə ki, bu və ya digər irimiqyaslı lahiyələrə start verilməsi işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasının göstəricisidir.

### Hər bölgədə yeni inkişaf mərhələsi

Əlbəttə ki, abadlıq-quruculuq işləri təkcə işğaldan azad olunan ərazilərdə deyil, həmçinin Azərbaycanın digər bölgələrində də sürətlə reallaşır. Quba da bu sırada olan məkanlardandır. Belə ki, 2020-ci ildən etibarən rayonun Qonaqkənd qəsəbəsində kompleks abadlıq və quruculuq işləri həyata keçirilib. Qəsəbədə Ümummilli Lider Heydər Əliyevin abidəsinin ətrafında yeni park salınıb. Həmçinin qəsəbə Mədəniyyət Evinin istifadəyə yararsız, qəzalı vəziyyətdə olan binası sökülərək əvəzində yenisi inşa olunub. Quba-Qonaqkənd avtomobil yolu çəkilib. Prezident İlham Əliyev Quba-Qonaqkənd avtomobil yolunun açılışını edib. 46 kilometrlik Quba-Qonaqkənd avtomobil yolunun istismara verilməsi ilə 68 min nəfərin rahat gediş-gəlişi təmin olunur. Bu yol uzun illər əsaslı təmir olunmadığı üçün hərəkət hissəsində qabarmalar, çalalar əmələ gəlmişdi. Bu isə yolda nəqliyyatın hərəkətini çətinləşdirirdi. Azərbaycan Prezideni İlham Əliyevin bildirdiyi kimi, "Kəndin əsas problemi yol problemi idi. Doğrudan da bu yolun çəkilməsi hesab edirəm ki, tarixi hadisə sayıla bilər". Dövlət başçısı bildirib ki, Quba rayonunda əhəmiyyət baxımından bir Xınalıq yoludur, bir də Qonaqkənd yolu idi: "Xınalıq yolu da keçilməz bir yol idi, oraya da gedib çatmaq üçün saatlarla vaxt lazım idi və qış aylarında, ümumiyyətlə, təcrid vəziyyətində idi... Nəhayət biz buna nail olduq". Quba-Qonaqkənd yolunun yenidən qurulması həm də əhalinin tədarük etdiyi kənd təsərrüfatı məhsullarını, meyvətərəvəzi qısa vaxtda istədikləri ünvana çatdırmağa imkan yaradır, həmçinin turizm imkanlarını daha da genişləndirir.

Qubanın Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəb, "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin açılışı, Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərinin aparılması da görülən işlərin məntiqi davamıdır. Bu cür komplekslərin yaradılması regionlarda əmək bazarına yeni iştirakçıların daxil olmasına ciddi təkan verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malikdir. Bu gün Cənab Prezidentin hər zaman olduğu kimi, sözü ilə əməli tam üst-üstə düşür. Ölkə Parezidenti İlham Əliyevin dediyi kimi: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə, haqlı olaraq, fəxr edə bilər".

***Zümrüd BAYRAMOVA***

PORTRET

# İqtisadi təhlükəsizliyimizi təmin edən strategiyanın banisi!

**(3-cü yazı)**

*(Əvvəli ötən saylarımızda)*



Bu silsilədən olan əvvəlki yazıda Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının sürətli inkişafını və dayanıqlı iqtisadi sistem yaranmasını təmin edən uğurlu iqtisadi islahatları, dövlət proqramları, həmçinin yaxın gələcəyə hesablanan iqtisadi inkişaf strategiyasının necə formalaşdırıldığından danışmışdıq. Bu hissədə isə iqtisadiyyatımızın tarazlı, davamlı və balanslı şəkildə qurulması üçün həyata keçirilən işlərdən və nəzərdə tutulan proqramlardan danışacağıq.

## Neft asılılığından qeyri-neft sektoruna keçid

Məlum olduğu kimi, hər bir ölkənin balanslı inkişafı onun iqtsadiyyatının regional və sahəvi diversifikasiyası son dərəcə vacibdir. Prezident İlham Əliyev də ölkə iqtisadiyyatının şaxələndirilməsini, regionların inkişafını, davamlı inkişaf modelinin qurulmasını əsas prioritet olaraq müəyyən etmiş və hökumətin qarşısına müvafiq vəzifələr qoymuşdur.

Keçən 22 ildə Azərbaycan neft sektorundan əldə etdiyi gəlirlərin əhəmiyyətli hissəsinin qeyri-neft sektoruna yatırılması siyasəti ilə, ölkəmizin neftdən asılılığı xeyli dərəcədə azaldılmışdır. Nəticədə son illərdə büdcə gəlirlərində və ÜDM-də qeyri-neft sektoru üstünlüyü ələ almışdır.

İqtisadiyyatda neft gəlirlərindən sosial-iqtisadi məqsədlərə effektiv istifadə etməklə gələcək inkişaf üçün şaxələnmə və ixrac potensialı yaradılmışdır.

Son 20 ildə iqtisadiyyata yönəldilən investisiyalar 2,8 milyard ABŞ dollarından 17,1 milyard ABŞ dollara qədər yüksəlib. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib.

Bununla yanaşı ölkəmizin streteji valyuta rezervləri də sürətlə çoxalır. 2025-ci ilin 30 sentyabr tarixinə olan məlumata əsasən Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivləri 70 milyard ABŞ dolları təşkil edir.

## Beynəlxalq və regional enerji layihələri

Bakı-Tbilisi-Ceyhan neft boru kəməri dünya dövlətləri ilə Azərbaycanın yeni münasibətlərinin qurulmasına təkan verib, ölkəmizin xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə zəmin yaradıb.

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. Azərbaycanın iqtisadi siyasətinin ən böyük uğurlarından sayılan BTC ölkəmizin Avrasiya regionunda mövqeyini xeyli gücləndirib, dövlətimizi Cənubi Qafqazın liderinə çevirib. Bu gün BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edən bir layihədir.

Ölkəmizin beynəlxalq nüfuzunu artıran daha bir layihə- "Cənub Qaz Dəhlizi"nin məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının 2-ci mərhələsinin işlənməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Qaz Boru Kəməri, TANAP və TAP vasitəsilə ilkin olaraq Türkiyəyə və Cənubi Avropaya ixracını təmin etməkdir. 2011-ci ildə Aİ və Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat imzalayıb. Birgə Bəyanat TANAP və TAP-la bağlı Hökumətlərarası Sazişlərlə birlikdə uzunmüddətli qaz satış müqavilələri üçün zəmin yaradıb. 2012-ci il iyunun 27-də Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyənin Baş naziri Rəcəp Tayyip Ərdoğan TANAP-la bağlı müqavilə imzalayıb. 2014-cü il sentyabrın 20-də "Cənub Qaz Dəhlizi"nin təməli qoyulub. 29 may 2018-ci il tarixində Bakıda "Cənub Qaz Dəhlizi"nin, 12 iyun tarixində isə Əskişəhərdə bu dəhlizin mühüm hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəmərinin açılışı olub. 30 iyun 2018-ci ildə ilk kommersiya qazının Trans-Anadolu (TANAP) boru kəməri ilə Türkiyəyə göndərilməsinə başlanılıb. 30 noyabr 2019-cu ildə TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Azərbaycan təbii qazının 31 dekabr 2020-ci ildə Avropa bazarına tədarükünə başlanılıb. Cənub Qaz Dəhlizinin ümumi dəyəri, təxminən, 40 milyard ABŞ dollardır. Hazırda Azərbaycan 14 ölkəyə təbii qaz ixrac edir. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada 1-ci yeri tutur;

## Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevrilib

Azərbaycan əlverişli coğrafi mövedə yerləşməsindən məharətlə istifadə edilib. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyat dəhlizlərinin mühüm qovşaqlarından birinə çevrilib. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, respublikada 9 beynəlxalq hava limanının, Bakı-Tbilisi-Qars dəmir yolunun və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

Bakı-Tbilisi-Qars xətti 2024-cü ilin may ayında tamamlanaraq istismara verilmiş, xəttin illik yükaşırma həcmi 1 milyon tondan 5 milyon tona çatdırılmışdır. Bakı Beynəlxalq Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tona bərabərdir və yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq. "Şərq-Qərb nəqliyyat dəhlizi" Çinlə Avropa arasındakı ən qısa marşrut olduğundan tranzit və yükdaşıma baxımından səmərəlidir.

## Azərbaycan dünyanın azsaylı kosmik ölkələri sırasındadır

Ölkənin iqtisadi qüdrəti və yeni texnologiyaların təşviqi sahəsində əldə olunan uğurlar nəticəsində Azərbaycan 2013-cü ildə ilk süni peykini orbitə çıxararaq dünya kosmos ailəsinin üzvünə çevrilib. 2013-cü ildə "Azerspace-1" telekommunikasiya, 2014-ci ildə "Azersky" Yerin məsafədən müşahidəsi, 2018-ci ildə isə "Azerspace-2" telekommunikasiya peyki orbitə çıxarılıb. Bu peyk layihələrinin həyata keçirilməsinin əsas məqsədləri ölkənin milli təhlükəsizliyinin təmin olunmasına dəstək verilməsi, sosial-iqtisadi inkişafa töhfə verilməsi, kommersiya fəaliyyətini genişləndirərək peyk layihələrinə yatırılan investisiyaların geri qaytarılması, elmi tədqiqatların aparılmasına dəstək verilməsi və beynəlxalq kosmik təşəbbüslərdə iştirak edərək ölkənin beynəlxalq imicinin yüksəldilməsinə töhfə verməkdir. 2023-cü il 2-6 oktyabr tarixlərində Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresi kosmik sənaye, müasir texnologiya və innovasiya sahələrində böyük uğurlara malik ölkəmizin dünya miqyasında nüfuzunun artdığını bir daha nümayiş etdirdi. Bu gün Azərbaycan dünyanın bir sıra ölkələrinə peyx xidmətləri göstərir və kosmik yüksəlişini sürətləndirir.

## Rəqəmsal iqtisadiyyata keçid strategiyası

"Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya" Prezident İlham Əliyev tərəfindən 10 dekabr 2025-ci ildə imzalanıb. Strategiyanın əsas hədəfləri ölkədə sahibkarlıq sahəsində rəqəmsal infrastrukturun genişləndirilməsi və transformasiyanın sürətləndirilməsi, iqtisadiyyatın rəqabətliliyinin yaxşılaşdırılması, innovasiya əsaslı inkişafın təşviqi, rəqəmsal bacarıqların gücləndirilməsi, eləcə də rəqəmsal iqtisadi fəaliyyətlərin dayanıqlığının artırılmasıdır. Strategiya informasiya texnologiyalarının və 4-cü Sənaye İnqilabının əsas texnologiyalarının (süni intellekt, böyük verilənlər, blokçeyn, bulud texnologiyaları, "ağıllı şəhər" həlləri və s.) sürətli inkişafı şəraitində rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşdırılması, onun dayanıqlığının təmin edilməsi və bütün iqtisadi sahələrdə rəqəmsal transformasiyanın geniş tətbiqi prinsiplərinə əsaslanır. Strategiyanın icrası nəticəsində iqtisadiyyatın rəqəmsal sektorunun ÜDM-də payının artırılması, rəqəmsal xidmətlərin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsi, iqtisadi sahələrdə rəqəmsal texnologiyaların tətbiq səviyyəsinin genişləndirilməsi, rəqəmsal bacarıqlara malik ixtisaslı kadrların sayının artırılması, eləcə də Azərbaycan Respublikasının regional rəqəmsal mərkəzə çevrilməsi hədəflənir;

## Regionların sosial-iqtisadi inkişafı əsas prioritetdir

Bölgələrin inkişafında Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir.

Regionların sosial-iqtisadi inkişafı ölkəmizdə yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern islahatlar və digər sistemli hədəflərin reallaşmasında mühüm rola malikdir. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü. Ölkədə qeyri-neft sektorunun inkişafı üçün güclü zəmin formalaşdı.

Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" da uğurla həyata keçirilmişdir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin iqtisadi islahatları nəinki son dövrlərdə ölkəmizin iqtisadi gücünü xeyli artırmış, üstəlik gələcək üçün də möhkəm iqtisadi təhlükəsizlik bazasının yaranmasını təmin etmişdir.

*(Ardı olacaq)*

***Elçin Bayramlı***

# AŞPA-nın Ramiz Mehdiyevə və Əli Kərimliyə görə narahat olması təəccüblü görünmür

Azərbaycanın dünya miqyasında yeri və rolu artdıqca bəzi xarici dairələrin narahatlığı da artır. Xüsusilə də, Azərbaycanın 44 günlük Vətən Müharibəsi ilə 30 illik erməni işğalına son qoyması AŞPA, Avropa Parlamenti kimi beynəlxalq təşkilatların, eləcə də Fransa, Almaniya, Niderland, Kanada kimi ölkələrin başlarına daş, qarınlarına azar doldurub. Bir növ qarınağrısına düşüblər. Nədən ki, bir türk-müsəlman ölkəsi tarixdə heç zaman olmayan hərbi, siyasi, diplomatik qələbəyə imza atıb. Azərbaycan müsəlman ölkəsi olaraq dünyanın ən yırtıcı, terrorçu xristian toplumu olan erməni hərbi-terrorçu dəstələrini məhv edərək öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Eyni zamanda Azərbaycan dövləti ərazisində formalaşdırılmış separatçı-terrorçu qrupları tamamilə məhv edib, onların başçılarını həbs edərək istintaqa təhvil verib. Hazırda Ermənistan Respublikası və onun silahlı qüvvələri, o cümlədən Ermənistanın yaratdığı qanunsuz "Dağlıq Qarabağ Respublikası" və onun qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiriyə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına suiqəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar. Onlar Bakı Hərbi Məhkəməsində mühkimə olunurlar.

Təbii ki, təqsirləndirilən erməni hərbi canilər layiq olduqları cəzanı alacaqlar. Buna görə dünya birliyinin ədalət axtarışında olan dairələri məmnun olub, müsbət rəylərini bildirməkdənsə fərqli mövqe sergiləyirlər. çünki Fransa, Rusiya, Almaniya, Niderland, Kanada və digər ölkələrin qara niyyətli başçıları erməni hərbi canilərinə hərbi, siyasi, maliyyə dəstəyi göstərməklə Azərbaycan daxilində separatizmin genişləndirilməsinə çalışıblar. Lakin planları alt-üst oldu və Azərbaycan "Dəmir yumruq" əməliyyatı ilə öz böyüklüyünü, güclü və qüdrətli dövlət olduğunu göstərdi.



### AŞPA və Avropa Parlamenti islamofob və türkofob təfəkkürlü nümayəndələrin toplaşdığı qurumdur

Bəzi məkrli dairələr, qərəzli beynəlxalq təşkilatlar Azərbaycanla güc vasitəsi ilə danışmağın qeyri-mümkün olduğunu anladıqlarından milçək vızıltısına oxşar bəyanatlar səsləndirmək, qətnamələr qəbul etməklə ürək bulandırmağa çalışırlar.

Erməni lobbisinin ciddi təsiri altında olan Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası Azərbaycana qarşı qərəzli, ikili standartlarla yanaşılan qətnamələr qəbul edirlər. 30 il Azərbaycan torpaqlarının işğalına göz yuman, heç bir sülh təşəbbüsü ilə çıxış etməyən AŞPA və Avropa Parlamenti indi başlarını qaldırıb sülhə can atan dövlətlərə əngəl olmağa, problemlər yaratmağa cəhd edirlər. Bu isə onu təsdiq edir ki, AŞPA və Avropa Parlamenti islamofob və türkofob təfəkkürlü nümayəndələrin toplaşdığı qurumdur. Halbuki, Avropa Şurasının 5 may 1949-cu il də Londonda keçirilən iclasında qəbul edilən nizamnaməsində məqsədləri ilə bağlı müddəaları hissəsində qeyd edilir ki, Avropa Şurasının məqsədi öz üzvləri arasında onların ümumi mirası olan, iqtisadi və sosial tərəqqiyə imkanlar yaradan ideal və prinsipləri qorunması və həyata keçirilməsi məqsədilə daha çox birliyə nail olunmasıdır. Nizamnamənin b- bəndində qeyd olunur ki, Avropa Şurasının orqanları vasitəsilə ümumi marağı əks etdirən problemlərin müzakirəsində, iqtisadi, sosial, mədəni, elmi, hüquqi və inzibati məsələlərdə, insan hüquqları və əsas azadlıqlarının qorunması və gələcəkdə də həyata keçirilməsində razılaşmalar və ümumi fəaliyyət əsasında nail oluna bilər. c. Avropa Şurasında iştirak üzv dövlətlərin Birləşmiş Millətlər Təşkilatında və daxil olduqları digər beynəlxalq təşkilat və birliklərdə iştirakına mənfi təsir göstərməyəcəkdir. d. Milli müdafiə ilə əlaqədar məsələlər Avropa Şurasının səlahiyyətlərinə daxil deyildir. Nizamnamənin 3-cü maddəsində göstərilir ki, Avropa Şurasına üzv dövlətlər bir-biri ilə səmimi və səmərəli şəkildə əlaqələrin qurulmasında və həyata keçirilməsi sahəsində əməkdaşlıq etməlidir.

Görünən ondan ibarətdir ki, AŞPA nümayəndələri nizamnamə tələblərinə əməl etmirlər. Daha doğrusu, nasist təfəkkürlü Frank Şveber kimi məxluqlar AŞPA-nın nizamnaməsini ayaqlar altına ataraq tapdalayır və öz dar düşüncələrinə uyğun qərəzli fikirlər səsləndirir, islamofob təfəkkürlü qətnamələr qəbul edirlər. Bu isə AŞPA beynəlxalq qurumdan çox özəl maraqları icra edən dərnəyə çevrildiyini göstərir. Dərnək isə heç zaman uzunömürlü ola bilməz. Dağılacağı və tarixin arxivinə göndəriləcəyi şübhəsizdir. Haqlı olaraq AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvü olmuş Rafael Hüseynov KİV-ə verdiyi açıqlamasında bildirmişdir ki, 10 ildən çoxdur ki, AŞ PA-nın sessiyalarında davamlı olaraq qurumun yaşadığı böhrandan danışılır, müzakirələr aparılır: "Böhrandan qurtulmaq üçün müxtəlif islahatlar təklif edilir, hətta bəzi addımlar da atılır. Nəhayət, böhranın çıxılmaz olduğunu düşünərək, müəyyən qüvvələr bu təşkilatı birdəfəlik süquta uğratmaq qərarına gəlmişlər. Sübutu bu gün təqdim olunan məruzə, bu gün aparılan müzakirələrdir. Bu sənəd ardıcıllıqla bir üzv ölkəyə qarşı sistemli olaraq ədalətsiz, qərəzli, ikili standartlara əsaslanan münasibət bəsləməyin bariz örnəyidir".

Rafael Hüseynov onu da bildrmişdir ki, AŞPA-da açıq-aşkar saxtakarlıq edilir, bir çox faktlar təhrif olunmuş formada verilir, reallıqlara, həqiqətlərə qara eynəkdən baxılır: "Əlbəttə, bu çürük sənəddə əksini tapan hər bir müddəaya sübutlarla, dəlillərlə cavab vermək, əsassız arqumentləri hər birini rədd etmək mümkündür. Lakin buna ehtiyac yoxdur. Qarşıdakı əsl həqiqəti görmək istəsə idi, bunu etməyə zərurət olardı və qarşıdakı izahlardan sonra yanlış olan mövqeyində dəyişiklik edərdi. İndiki situasiya büsbütün başqadır. Tapşırıq belə gəlib, Azərbaycana cəza vermək lazımdır. Azərbaycanı qınayırlar ki, niyə Avropa Şurasını ölkədə keçirilən növbədənkənar seçkiləri müşahidə üçün dəvət etməyib. Azərbaycan müşahidəçi kimi hətta ən sərt mövqeyi ilə tanınan beynəlxalq qurumları da dəvət edib, lakin 23 il müddətində həqiqi üzvü olduğu, buna qədər də daim seçki müşahidələri aparan komandaları məmnuniyyətlə qəbul etdiyi Avropa Şurasından bu dəfə imtina edib. Avropa Şurası rəhbərliyi, buraya birbaşa təsir imkanları olan dairələr gərək əvvəl bu barədə düşünərdilər. Bunun səbəbini indiyə qədər Azərbaycana qarşı bu təşkilatda apardıqları qəbuledilməz siyasətdə axtarmalıdırlar".

### AŞPA dağılmağa məhkumdur

Son vaxtlar diqqətçəkən məqamlardan bir də ondan ibarətdir ki, dağılmağa məhkum AŞPA və böhranlı vəziyyətdə olan Avropa Parlamenti korkoranə şəkildə Azərbaycanın iç məsələləri ilə bağlı şər və böhtan xarakterli qətnamələr qəbul edirlər. Hər iki qurum iddia edir ki, guya Azərbaycanda siyasi məhbuslar var və jurnalistlərin fəaliyyətinə əngəllər törədilən hallar baş verir. İddia edilir ki, guya AXCP sədri Əli Kərimli və onun trollarının həbs edilməsi onların siyasi fəaliyyətləri bağlıdır. Hətta başlarından böyük iddialar da irəli sürərək qeyd edirlər ki, Əli Kərimli və digərləri azad edilməlidir. Təbii ki, bu kimi qərəzli qətnamələr, absurd iddialar Azərbaycana qarşı daim olub. Son illər anti-Azərbaycan fəaliyyətini güclənməsi yuxarıda qeyd etdiyim kimi, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə bağlıdır. Ona görə də, Avropa Parlamentinin və AŞPA-nın ölkəmizlə bağlı qəbul etdiyi növbəti qətnamə qərəzli yanaşmanın, ikili standartların nəticəsidir. Azərbaycan azad, demokratik, hüquqi dövlətdir. Ölkəmizdə hər kəsin siyasi, ictimai fəaliyyətlə məşğul olmaq, KİV təsis etmək, jurnalis fəaliyyəti ilə məşğul olmaq hüquqları var. Azərbaycanda bir nəfər çıxıb deyə bilməz ki, onun jurnalis fəaliyyətinə əngəllər yaradılıb və ya siyasi fikirlərinə görə, tənqid edilib. Belə hallar yaşanmadığı üçün AŞPA-nın və Avropa Parlamentini qəbul etdiyi qətnaməni sadəcə kağız parçası hesab etməyə dəyər. Əgər Əli Kərimli və ətrafında olan ortaqları Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev dəstəsi ilə işbirliyinə gedərək ölkədə sabitliyi pozmağa, dövlət çevrilişi həyata keçirməyi planlaşdırıblarsa və bu məkrli planın üstü açıldıqdan sonra onlar həbs ediliblərsə, burada hansı hüquq pozuntusundan söhbət gedə bilər? Ümumiyyətlə, Frank Şveber kimi nasistlər Əli Kərimlinin, Ramiz Mehdiyevin və digər dövlət çevrilişi planının hazırlanmasında iştirak etmiş şəxslərin həbs olunmasından niyə narahat olublar? O aydın məsələdir ki, AŞPA və Avropa Parlamentinin bəzi üzvlərinin Əli Kərimli ilə sıx əlaqələri, əməkdaşlıq münasibətləri olub. Bütün hallarda Azərbaycan dövləti həyata keçirdiyi azad, demokratik, hüququn aliliyinə söykənən siyasətində haqlıdır və bu yol heç zaman fərqli olmayacaq. AŞPA, Avropa Parlamenti kimi korrupsiya və rüşvətxorluğun kök saldığı və dağılmağa məhkum olan beynəlxalq qurumların nə demələrindən, hansı şər və böhtan xarakterli qətnamələr qəbul etmələrindən asılı olmayaraq Azərbaycan var olduqca qələbələr, zəfərlər bəxş edən siyasətini davam etdirəcək.

**İLHAM ƏLİYEV**

# İpoteka limitlərinin artırılmamasının səbəbləri nələrdir?

*EKSPERT AÇIQLADI*

Son illər daşınmaz əmlak bazarında qiymətlərin davamlı şəkildə artdığı müşahidə olunur. Xüsusilə Bakı şəhərində və ona bitişik qəsəbələrdə ipotekaya uyğun olan mənzillərin qiymətləri daha sürətlə yüksəlir və bu kateqoriyaya aid mənzillər bazardakı digər təklifləri üstələyir. Qiymətlərin artmasına baxmayaraq, İpoteka Fondunun mənzil alışı üçün müəyyən etdiyi maksimum kredit məbləği uzun müddətdir dəyişməz qalır. Bəs, bunun səbəbi nədir?

Məsələ ilə bağlı əmlak üzrə ekspert Anar Nəsirov SİA-ya açıqlamasında bildirib ki, İpoteka Fondu daşınmaz əmlak bazarındakı real qiymət artımlarını nəzərə alaraq kredit limitini artırmalıdır: "Çünki hazırda 150 min manatlıq maksi-



mum ipoteka məbləği bazarın mövcud reallıqları ilə uzlaşmır və bu vəsaitlə normal, ipotekaya uyğun mənzil tapmaq olduqca çətindir. İnflyasiya və mənzil qiymətlərindəki artım nəzərə alınmaqla ipoteka limitinin hər il yenidən qiymətləndirilməsi daha məqsədəuyğun olardı. Bu addım ipotekaya marağı artırmaqla yanaşı, vətəndaşların mənzil əldə etməsini də nisbətən asanlaşdıra bilər. Hazırda isə Bakı və ətraf qəsəbələrdə, xüsusilə mərkəzə yaxın ərazilərdə 150-250 min manat aralığında ipotekaya uyğun



mənzil tapmaq getdikcə çətinləşir. Bu baxımdan, ipoteka limitinin mərhələli şəkildə artırılması vətəndaşların üzləşdiyi problemlərin azalmasına kömək edə bilər. Belə bir yanaşma daha geniş əhali qrupunun ipoteka vasitəsilə mənzil sahibi olmasına şərait yaradar. Mövcud limit isə bazardakı real qiymətlərlə uyğun gəlmir və bir çox hallarda alıcıları əlavə maliyyə çətinlikləri ilə üz-üzə qoyur. Ümumilikdə, 150 min manata qədər olan mənzillər əsasən şəhər kənarında yerləşir və bu qiymətə uyğun, yaşayış üçün əlverişli mənzil tapmaq ildən-ilə daha da çətinləşir".

**Arzu Qurbanlı**

# Mərkəzi Gömrük Hospitalı - 17 illik inkişaf və peşəkarlıq yolu




***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin nəzdində yaradılmış Mərkəzi Hospitalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirak etdiyi açılış mərasimi ilə 2008-ci ilin 25 dekabr tarixində öz fəaliyyətinə başlamış, qısa müddət ərzində yüksək səviyyəli tibbi xidmət göstərən nüfuzlu səhiyyə ocağı kimi tanınaraq ölkənin aparıcı tibb müəssisələrindən birinə çevrilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Mərkəzi Gömrük Hospitalı fəaliyyətə başladığı gündən etibarən səhiyyə sistemində özünəməxsus yer tutaraq, 17 il ərzində davamlı inkişaf yolu keçmiş, peşəkarlıq, etibar və yüksək tibbi xidmət anlayışlarını formalaşdırmışdır.***

Yarandığı ilk gündən hospitalın əsas məqsədi müasir tibbin nailiyyətlərini tətbiq etməklə pasiyentlərə keyfiyyətli, təhlükəsiz və əlçatan tibbi xidmətlərin göstərilməsi olmuşdur. Bu illər ərzində Mərkəzi Gömrük Hospitalı maddi-texniki bazası və kadr potensialını da gücləndirərək ölkənin qabaqcıl tibb müəssisələrindən birinə çevrilmişdir.

Bir çox yeniliklərə imza atmış Mərkəzi Gömrük Hospitalı Azərbaycanın qabaqcıl səhiyyə ocaqları sırasındadır. Qürurverici haldır ki, 2025-ci ilin fevral ayında Azərbaycanda və Cənubi Qafqazda ilk dəfə olaraq Mərkəzi Gömrük Hospitalında Orqan Transplantasiyası şöbəsinin transplantoloqu Mircəlal Kazımi və onun peşəkar komandası tərəfindən qaraciyər sirrozundan əziyyət çəkən xəstəyə meyit donordan qaraciyər uğurla köçürülmüşdür. Eyni ildə Azərbaycanda və Cənubi Qafqazda ilk dəfə Mərkəzi Gömrük Hospitalında meyit donordan böyrək çatışmazlığından əziyyət çəkən xəstəyə böyrək transplantasiyası əməliyyatı uğurla icra olunmuşdur.

Mərkəzi Gömrük Hospitalında müxtəlif profilli tibbi xidmətlərin 24/7 rejimində göstərilməsi pasiyent məmnunluğunun təmin olunmasında mühüm rol oynayır.

Yüksək komfort və müasir tibbi avadanlıqla təmin olunmuş Mərkəzi Gömrük Hospitalında texniki baxımdan ən mürəkkəb olan və cərrahiyyənin zirvəsi sayılan ürək-damar və orqan transplantasiyası əməliyyatları, uroloji rekonstruktiv əməliyyatlar, canlı donordan orqan transplantasıya, travmatoloji əməliyyatları, ağır xəstələrdə ürəkdə aortokoronar şuntlama və digər açıq ürək əməliyyatları, TAVİ, EVAR kimi invaziv müdaxilələr və digər əməliyyatlar icra olunur, yüksək keyfiyyət standartlarına cavab verən diaqnostika, terapevtik və cərrahi müalicə xidmətləri göstərilir. Həmçinin, ən son invaziv kardioloji müdaxilələrin köməyi ilə anadangəlmə ürək qüsuru olan uşaqlar müalicə olunur, TAVI üsulu vasitəsilə açıq ürək əməliyyatları aparılmadan zədələnmiş aorta qapağı bioloji qapaqla əvəz edilir, digər invaziv müdaxilələr yerinə yetirilir.

Mərkəzi Gömrük Hospitalının Ümumi Cərrahiyyə, Orqan Transplantasiyası, Anesteziologiya, Əməliyyatxana və Reanimasiya, Urologiya, Uşaq Cərrahiyyəsi, Travmatologiya və Ortopediya, Ürək-damar Cərrahiyyəsi, Kardiologiya, Efferent Terapiya, Mama-ginekologiya, Radiologiya, Fizioterapiya, Neonatologiya və Pediatriya, Təcili Tibbi Yardım, Poliklinika və digər şöbələrinin yüksəkixtisaslı tibb heyəti fədakarlıqla çalışaraq hər bir pasiyentə fərdi yanaşır, onların sağalması üçün ən müasir səviyyədə tibbi xidmət göstərirlər.

Mərkəzi Gömrük Hospitalının uğurunun əsasını yüksəkixtisaslı həkim heyəti, peşəkar orta tibb işçiləri və məsuliyyətli idarəetmə sistemi təşkil edir. Tibbi personalın davamlı olaraq yerli və beynəlxalq təlimlərə, konfranslara cəlb olunması hospitalın elmi-praktik potensialının artmasına şərait yaradır. Belə ki, 2025-ci ildə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi Tədris Mərkəzinin təşkilatçılığı ilə "Qaraciyər transplantasiyasında anesteziyanın və əməliyyatdan sonra intensiv terapiyanın xüsusiyyətləri" mövzusunda respublikanın aparıcı ekspertlərinin görüşü, "Xəstəxanadaxili infeksiyaların idarə olunmasında müasir tendensiyalar və innovativ yanaşmalar" mövzusunda ekspertlərin zirvə görüşü, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Ana və Uşaq Sağlamlığı: Mövcud Problemlərə Müasir Baxış" mövzusunda Beynəlxalq Elmi Konfrans, "Ortopediya və Tibbi Reabilitasiyada Müasir Yanaşmalar" mövzusunda Elmi-praktiki seminar, "Regionda İlk: Meyitdən Orqan Nəqli - Uğurlu Təcrübədən Gələcəyə Doğru" mövzusunda Beynəlxalq Elmi Konfrans, Ümummilli Lider Heydər Əliyevin Anım Gününə həsr edilmiş "Zərərli vərdişlərlə mübarizə və sağlam həyat tərzi" üzrə könüllü gömrükçülərin III Forumu keçirilmişdir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Türkiyənin Florence Nightingale Hastaneler Qrupu və Türkiyə Cümhuriyyəti Demiroğlu Bilim Universiteti, Azərbaycan Tibb Universiteti, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı, Naxçıvan Dövlət Universiteti, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu və digər qurumlar ilə imzalanmış əməkdaşlıq memorandumları çərçivəsində tərəflər arasında tibbin müxtəlif sahələrini əhatə edən beynəlxalq konfrans, konqres, təkmilləşdirmə kursları, müştərək elmitədqiqat və davamlı tibbi təhsil tədbirləri, təcrübə proqramları, ustad dərsləri və digər qarşılıqlı tədbirlər keçirilir.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi daim beynəlxalq əməkdaşlıqlara xüsusi önəm verir, xarici tibb qurumları və peşəkar assosiasiyalarla əlaqələr qurararaq bilik və təcrübə mübadiləsini genişləndirir. Bu isə tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə xidmət edir. 2025-ci ildə Mərkəzi Gömrük Hospitalı ilə Britaniya-Azərbaycan Həkim və Stomatoloqlar Assosiasiyası arasında əməkdaşlıq memorandumu imzalanmışdır.

17 illik fəaliyyət yolu Mərkəzi Gömrük Hospitalının səhiyyə sahəsində etibarlı, dinamik və innovativ bir qurum kimi formalaşdığını bir daha təsdiqləyir. Qarşıdakı illərdə də hospitalın əsas hədəfi müasir tibbin çağırışlarına cavab verən, insan sağlamlığını prioritet hesab edən xidmətlər təqdim etməkdir.

Mərkəzi Gömrük Hospitalının 17 illiyi münasibətilə bu uğurlu yolda əməyi olan bütün tibbi heyəti təbrik edir, gələcək fəaliyyətlərində yeni nailiyyətlər arzulayırıq.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Tövlə icazəsindən Bakı tıxacına BİR ADDIMLIQ YOL!

***Artıq son illər paytaxt Bakının tıxac problemi ciddi sosial bəlaya çevrilib. Hər gün sosial şəbəkələrdə, mediada müzakirə olunan əsas məsələ Bakıdakı dəhşətli tıxaclara çarə axtarmaqdır. İş o yerə çatıb ki, hazırda avtobuslarla yanaşı. hətta metro vaqonları da tıxac halına gəlib çatıb.***

Bəli, Bakı getdikcə "yüklənir". Bakıda hazırda faktiki olaraq 4 milyondan yuxarı insan yaşayır. Bu, Bakı kimi şəhər üçün böyük rəqəmdir. Çünki nə ərazisi, nə sosial-nəqliyyat infrastrukturu bu sayda əhalini qəbul etməyə imkan vermir. Əlbəttə ki, bu tıxac və qarmaqarışıqlıq ilk növbədə bölgədən paytaxt Bakıya olan insan axını ilə bağlıdır. Çünki Respublikada əl-ayağı iş tutan bir çox ailə yaşamaq və iş tapmaq üçün Bakıya üz tutur. Əlbəttə, texnologiya və inkişaf əsrində insanlar daha çox şəhərlərdə yaşamaq, daha qabaqcıl cəmiyyətlərə inteqrasiya olmaq istəyirlər. Burası belədir.

Amma..., hə işin ƏMMASI odur ki, kəndlərdəki bütün insanlar ev-eşiyi atıb Bakıya üz tutmaq arzusu ilə yaşamırlar əlbəttə ki. Onları Bakıya doğru yol almağa məcbur edən ciddi sosial-iqtisadi səbəblər var. Bölgələrimizdə real və qənaətbəxş qazanc yerlərinin olmaması paytaxta kütləvi axını şərtləndirən əsas səbəbdir. 300-500 manat aşağı gəlirlə gənc ailələri kənd-kəsəyə bağlamaq artıq zaman baxımından mümkünsüz məsələdir. Pulun getdikcə dəyərdən düşdüyü, bahalaşmanın vüsət aldığı hazırkı günlərdə kənd təsərrüfatı üçün inkişaf qapısı açmaq, ölkə bazarlarında yerli məhsulların satışını təşkil etməklə kəndlinin maddi rifahını və yerlərdə aqrobiznesi dirçəltmək ən prioritet məqsəd olmalıdır. Lakin hazırkı günlərdə bunun tam əksini müşahidə edirik.

Düzdür, dövlət bölgələrdə yeni iş yerlərinin açılması və sosial iqtisadi inkişaf üçün mühüm layihələr və təşəbbüslər irəli sürür. Lakin... min dəfə təəSsüf olsun ki, bəzən məmur səhlənkarlığı ucbatından yerlərdə real qazanc yerləri, davamlı iş sistemi yaradılmır. Son bir ildə televiziya ekranlarında göstərildiyi kimi, qapısı qıfıllı kənd evlərinin sayı durmadan artır. Ən səfalı kəndlərimiz getdikcə boşalır, heyvandarlıq, bağçılıq getdikcə sıradan çıxır. Bu təkcə iqtisadi itki deyil. Bu həm də dədə-baba yurdunu tərk etmək, torpağa olan bağlılığını itirmək, uşaqlıq və gənclik xatirələrini daş kimi bağrına basıb muzdlu iş axtarmaq üçün elobadan didərgin düşmək deməkdir...

Azərbaycanın bölgələrində yerli əhalinin sosial rifahını və qazanc imkanlarını yüksəltmək üçün verimli torpaq sahələrini, təbii sərvətləri istehsal infrastrukturuna çevirmək ən vacib məsələdir. Çünki bu addım atılmasa, kəndlərdə heyvandarlığı, sosial infrastrukturu ayağa qaldırmasaq, o zaman bölgələrdəki yerli əhalinin dolanışıq üçün tək çıxış yolu kimi Bakıya axınını dayandıra bilməyəcəyik.

Bilirsiniz ən dəhşətlisi nədir? Təzə qərarla sən demə kəndlərdə tövlə tikintisi üçün də müvafiq icra hakimiyyəti orqanlarından icazə alınmalıdır. Axı buna nə ehtiyac var? Biz yerlərdə kənd təsərrüfatını dirçəltmək, yerli istehsal və məhsuldarlığı yüksəltmək əvəzinə tövlə tikintisinə belə inzibati qaydalar qoyur və onu sərtləşdiririksə, o zaman ətin qiyməti 25 manatı da keçəcək, hətta bu gedişlə bir neçə ilə yerli qoyun, dana ətinə həsrət qalacağımız günlər də gəlir qabaqda. Artıq mağazalarımızda Somalidən, Monqolustandan, hətta Avstraliyadan gətirilən ətlər boy verir. Bu uzaq ölkələrdən mənşəyinə əmin olmadığımız ətləri kimlərinsə cibləri dolsun deyə Azərbaycana gətirmək əvəzinə olmazmı ki, elə öz kəndlilərimizə şərait yaradaq, qoy heyvandarlıq inkişaf etsin? Kənddə tövlə tikintisi üçün norma və şərtlər qoymaq əvəzinə olmazmı kəndliyə şərait yaradaq ki, bol məhsuldarlıq yaransın və bazarlardakı monopoliya əvəzinə yerli məhsullar satılsın, kəndlərdə həyat canlansın.

Sözümün "mustafası" odur ki, bir neçə gündən sonra qarşılayacağımız 2026-cı ildə Bakının daha ağır tıxacına, basabasına hazır olmalıyıq. Çünki... çünki tövlə icazəsi ilə Bakı tıxacı arasında məsafə çox qısadır, çox...

# Plasenta: tibbi tullantı həyat xilas edə bilərmi?



Ana bətnində 9 ay bizi bir kisə qidalandırır. Elm ona "plasenta" deyir. Biz dünyaya gəldikdən sonra 9 ay ana bətnində bizi qidalandıran həyat ağacı-plasenta, bizi plasentaya bağlayan göbək ciyəsi (göbək bağı) bədəndən ayrılır. Yəni onun missiyası biz doğulanda başa çatır və tibbi tullantı olur.

Son illər plasentanın kosmetologiyada istifadəsini çox eşidirik, daha çox sənət adamları dərisini gözəlləşdirmək üçün onun hüceyrələrini üzünə tətbiq etdirir. Buna görə təhqirə, söyüşə də məruz qalırlar. Sosial şəbəkələrdə belə videoların altına "Allah bilir hansı uşağın qanını alıb üzünə vurub", "uşaqları öldürüb toxumasını üzünə vurdurub" kimi şərhlər yazırlar.

Plasenta ana hamilə qaldıqda uşaqlığının divarına yapışır və göbək ciyəsi vasitəsi ilə bizim orqanizmimizdən mühavıə etdiyi körpəni qidalandırır. Yəni onun inkişafı üçün lazım olan hər şeyi bir növ bizdən çəkir, ona ötürür. Uşaq doğulanda plasenta öz vəzifəsini bitirir, uşaqlığın divarından qopur, doğuş prosesi bitəndə o da bədəndən xaric edilir və tibbi tullantılar qəbristanlığına göndərilir.

Müasir elm deyir ki, plasenta toxumalarında müxtəlif növ kök hüceyrələr mövcuddur. Bəzi ölkələrdə plasentanın kök hüceyrələri qan xərçənginin, limfomanın, anemiyanın müalicəsində istifadə edilir, serebral iflic xəstələrinə tətbiq edilir, orqan və toxuma regenerasiyasına kömək edir. Müasir tibb gələcəkdə plasenta toxumalarının köməyi ilə hətta orqan yetişdirməyi planlayır.

Plasenta təkcə kök hüceyrələrinin zəngin mənbəyi deyil, onun toxumasında həm də bir çox müxtəlif bioloji aktiv maddələr var. Bunlar sitokinlər, hormonlar, vitaminlər, ixtisaslaşmış funksiyalara malik zülallar, fermentlər, mikroelementlərdir. Bir sözlə, plasenta şüurlu şəkildə formalaşmış insan orqanıdır. Plasenta ekstraktı tibbdə və kosmetologiyada immunomodulyator, bərpaedici və iltihab əleyhinə xüsusiyyətlərə malik bir dərman kimi tətbiq edilir. Unikal biokimyəvi xüsusiyyətlər plasenta ekstraktının dermatologiya, terapiya, cərrahiyyə, travmatologiya, nevrologiya, ginekologiyada da istifadəsinə imkan verir.

Məlumdur ki, plasenta ekstraktı birləşdirici toxumanın əsas zülalı olan kollagenin əmələ gəlməsini stimullaşdırır. Son illərdə bütün dünyada plasenta ekstraktına marağın ildən ilə artdığını müşahidə edirik. Lakin maraqla yanaşı həm də etirazlar da var. Yapon alimləri 2024-cü ildə "Clinical Science" elmi jurnalında qaraciyər serrozunun müalicəsində insan plasenta ekstraktından istifadə təcrübəsini təsvir edən bir məqalə dərc edəndə ciddi narazılığa tuş gəldilər. İnsanlar bunun etik olmadığını, orqan ticarətinə yol açdığını iddia edirdilər. Maraqlıdır, doğuşdan sonra tibbi tullantı olan plasentanın yenə tibb üçün istifadəsi həqiqətən qeyri-etik və insanlığa yaraşmayan davranışdırmı?

Plasentanın istifadəsi bəzi hallarda qadağan oluna bilər, eləcə də etik baxımdan mübahisəli hesab olunması mümkündür. Etik baxımdan doğru hesab edilməməsi insan mənşəli toxuma olmasından qaynaqlanır. Plasenta tibbdə insan bioloji materialı sayılır. Buna görə də ana tərəfindən yazılı razılıq olmadan istifadəsi etik hesab edilmir. Eləcə də kommersiya məqsədilə alınıb-satılması bir çox ölkədə etik və qanuni normalara ziddir. Plasentanın istifadə edilməsi ilə bağlı hüquqi məhdudiyyətlərin olduğu Avropa İttifaqında yalnız tibbi və elmi məqsədlər üçün istifadəyə icazə var. İnsan plasentasının kosmetikada istifadəsi faktiki olaraq qadağandır. ABŞ da insan plasenta ekstraktlarını kosmetik tərkib kimi təsdiqləmir, bu ölkədə və bu ölkənin ixracı kimi təqdim edilən "Human placenta extract" adı ilə satılan məhsullar ya qanunsuzdur, ya da yanlış etiketlənir. Çünki bir çox hallarda heyvan plasentasını insan plasentası kimi qələmə verirlər. Yaponiyada insan plasentası preparatları yalnız tibbi məhsul kimi, məsələn, inyeksiya və ya dərman olaraq istifadə edilə bilər, kosmetikada istifadəsi ciddi nəzarət altındadır.

Əgər müalicəsi mümkün olmayan xəstəliklərin sağaldılmasında insan toxumasına ehtiyac varsa, bu toxuma insana zərər verilmədən əldə edilirsə, dünyaya uşaq gətirən qadının, dünyaya gələn körpənin sağlamlığını hədələmirsə və işbazların hiylələrinə oyun olmursa o zaman onun istifadəsi nəzarət altında mümkün ola bilər. Kosmetoloji, tibii, elmi məqsədlər üçün istifadə edilən insan toxuması insana zərər vermədən yenə insanlara fayda verirsə, bu qeyri-etik olmamalıdır.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması " istiqaməti çərçivəsində hazırlanıb*

# İynə saplaya bilməyən qızlar

Ötən yazılarımdan birində müasir dövrdə əksər gənc oğlanın əlindən bir iş gəlməməsindən, dəqiqəbaşı zəng edib evə usta çağırmasından, bununla bağlı da çoxsaylı problemlər yaşanmasından söhbət açmışdıq. Bu gün isə əksər gənc qızın adi bir iynə saplaya, tikiş tikə bilməməsindən söhbət açmaq istəyirəm. Bunun səbəbi özümüzlə yanaşı, həm də müasir təhsil sistemindədir. Çünki əksəriyyətimiz dünəndən bu günə heç nə gətirə bilmədik. Təhsil sistemi isə müasirləşdikcə əmək təlimi dərsləri yoxa çıxdı. Nəticə isə budur, göz qarşısındadır...



### Hər evin bəzəyi qızlar

Qızlar evin bəzəyidir... Bu kəlam tək ona görə deyilməyib ki, qızlar gözəlliyi, zərifliyi, hər biri bir çiçək olması ilə evləri bəzəyir. Bu kəlam həm də ona görə deyilib ki, qızlarımız gəlin köçdüyü evi səliqə-sahmanı, işi-gücü ilə bəzəyir. Evin hər künc-bucağını zinətləndirir. Bu işlərdən biri də təbii ki, tikiş işidir. Hər qızın ən birinci bacarmalı olduğu işlərdən biri...

Vaxt var idi ki, ana-nənələrimiz qızlarımıza tikiş işini elə bir səviyyədə öyrədirdi ki, onlar parça üzərinə rəngli saplarla min bir naxış vururdu. Buna işləmə deyilirdi. Qızlar öz əlləri ilə işlədikləri bu işləmələri cehizlərinə qoyur, gəlin köçəndə evlərini onlarla bəzəyirdi. Bu işləmələr tablo kimi divara vurulur, yastıq üzlərini, süfrələri bəzəyirdi. Hər bir qızın qabiliyyəti ilkin olaraq bu işləmələri bacarması ilə müəyyən edilirdi.

Qızlarımıza həm də xalça, kilim, palaz toxumaq öyrədilirdi. Elə ki, qız uşağı bir az böyüdü, nənələrimiz onları oturdurdu hana qarşısına, iplərlə, xalça toxuma alətləri ilə yavaş-yavaş tanış edirdi. Daha sonra xalçanın sadə yerlərini toxutdururdu. Bir azdan isə artıq qızlar eskizə baxmaqla əməlli-başlı xalça toxuyurdu. Vaxt o vaxt olurdu ki, artıq onlar gözəl bir sənət əsəri yaradırdı. Hər kəsin toxuduğu xalça isə yenə də cehizinə daxil edilir və gəlin köçdüyü evin bəzəyinə çevrilirdi.

Elə ki, payız soyuğu, ayazı ilə qapını döydü, qız-gəlinlər başlayırdı corab, şərf, köynək toxumağa. Nənələrimiz qızlara yun əyirməyi, ip düzəltməyi, rəngləməyi öyrədirdi. Qızlarımız var idi ki, necə deyərlər, şagird gəlib ustanı keçmişdi, olmuşdular xalça və gözəl toxumaların əsl ustası. Qardaş-yoldaşlarının, körpələrinin qış geyimləri bu qadınların zərif barmaqlarından ilmə-ilmə keçən geyimlərə çevrilirdi. Qızlarımız parça biçib tikirdi. Elə paltarlar tikirdilər ki, onu illərin dərzisinin tikdiyindən fərqləndirmək çətin olurdu. Evin pərdəsini, yataq örtüyünü, yorğan-döşək üzlərini də əlləri ilə tikir, evlərinin hər yerini zəhmətlərinin bəhrəsi ilə rövnəqləndirirdilər. Bax, bizim dünənimiz bu qadınlar idi. Bəs bizim günümüzdə necə, o qadınları görə bilirikmi?

### Sonralar isə...

Sonralar məktəblərimizdə əmək təlimi dərsləri keçirilməyə başlandı. Evlərdə nənə-analarından əl işləri öyrənən qadınlar müəllim kimi bu bacarıqları şagirdlərə öyrətməyə başladılar. Beləliklə, iynə saplamağı, tikiş tikməyi bacarmayan qız olmadı. Məktəblərdə bu işlər o qədər mükəmməl öyrədilirdi ki, sonra ali təhsil almağa potensialı olmayan qızlar dərzilik sənətini seçir, texniki-peşə məktəblərində də təhsillərini davam etdirdikdən sonra dərzi kimi fəaliyyətə başlayırdılar. Uzun illər bu peşə ilə həm qadınları zinətləndirir, həm də ailəsinin çörək pulunu qazanırdılar. Məktəblərdə öyrədilən xalça toxuma işləri ilə gələcək xalçaçı qadınların təməli qoyulurdu. Onların toxuduğu xalçalar nəinki ölkəmizdə, hətta ölkə hüdudlarından kənarda təşkil edilən sərgilərdə sərgilənir, ən gözəl xalça kimi qiymətləndirilirdi. Belə qadınlardan müsahibələr alınır, oçerklər, məqalələr yazılırdı. Onların əməyi bütün qızlara nümunə olaraq göstərilirdi.

Ölkəmiz sovet ittifaqının tərkibində olduğu illərdə İkinci Cahan müharibəsi zamanı beş il ərzində döyüşən əsgər və zabitlər üçün cəbhəyə minlərlə toxunma corab, şərf, əlcək, köynək göndərmişdi. Bax, vaxtilə nənələr, daha sonra isə məktəblər öyrətməsəydi, qız-gəlinlər bunu bacara bilərdimi? Elə bütün bunlara görə də qızlara kiçik yaşlarından tikiş işi öyrədilməlidir. Hər bir qadın dərzi, xalçaçı, toxucu olmasa da, evinin tikiş işlərini görməyi bacarmalıdır. Ən azından iynə saplayıb həyat yoldaşının, övladının köynəyindən qopan düyməni tikməyi bacarmalıdır. Bir düymə, bir söküк üçün dərziyə gedilməyəcək ki...

### Tikiş işi də dünəndə qalanlardan oldu

Təəssüflər olsun ki, biz dünəndə çox şeyləri qoyub bu günlərə gəldik. Elə onlardan biri də tikiş işidir ki, bura xalça, digər toxuma işləri də əlavə olunur. Elə bu işlərin hər birinə gedən yol da bir iynə saplamaqdan keçir. Bir iynəni saplamağı öyrənən qız yavaş-yavaş tikiş tikir, sonra əlinə toxumaq üçün alətləri alır.

Lakin müasir texnologiyalar həyatımıza daxil oldu-olmadı, həyatımız büsbütün dəyişdi. Artıq məktəblərimizdə də əmək təlimi dərsləri yetərli şəkildə tədris olunmur. Aşağı siniflərdə buna bənzər bir tədris prosesi var, lakin yuxarı siniflərdə əmək təlimi adlı bir fənn tədris olunmur. Odur ki, ilk bünövrəmizin qoyulduğu məktəbdə övladlarımız əməyin sirlərinə yiyələnə bilmir. Nəticə isə budur ki, oğlanlar evdə bir elektrik lampasını dəyişə bilmir, bunun üçün usta çağırır. Qızlar isə iynə saplayıb bir söküyü tikə bilmir, bunun üçün kilometrlərlə yol qət edib dərziyə yollanır.

Təhsilin müasirləşməsi, yeni metodların tətbiq olunması gözəl bir işdir. Lakin müasirlik o demək deyil ki, sən dünən yaxşı olanları bir kənara atasan. Axı illərlə əmək təlimi dərslərinin gözəl nəticəsinin şahidi olmuşuq. Bu gün məktəblərdə uşaqlara əməyin sirlərinin öyrədilməsinin nəyi pis ola bilərdi ki?..

Hər bir məktəbli sabah bir evin kişisi, qadını olur. Bəli, təhsil alırlar, daha sonra təhsillərini davam etdirib alim, professor da olurlar. Lakin unutmayaq ki, vaxtilə bizim alim kişilər həm də evlərinin ustası olub, kiçik işdən ən böyük işlərədək ustalığı özləri ediblər. Professor qadınlarımız olub ki, paltarlarını özləri tikib geyinib, ailədə hər hansı bir tikiş üçün ömür boyu dərziyə müraciət etməyib. Lakin müasir dövrümüzdə bunların hamısının üzərindən xətt çəkib qoymuşuq bir kənara.

Telefonlar, kompüterlər, internet, sosial şəbəkələr ötən illərin ənənələrini əlimizdən alıb. İndi hər kəs sosial şəbəkələrdə, telekanalların nümayiş etdirdiyi saysız seriallarda ilişib qalıb. Telefonlarda gün ərzində minlərlə xəbərin içərisində gəzişməklə vaxt keçirir.

### Bəs bu gedişlə harayadək?..

Həqiqətən də maraqlıdır, bu gedişlə haraya gedirik? Bütövlükdə dəyişən həyatımızın gələcəkdə bizim üçün hansı problemləri yaradacağını heç olmasa, hərdən düşünürükmü?

İndi on qızdan birinin bir iynəni saplaya bilməsi şübhə doğurur. Buna inanmaq o qədər çətindir ki... Ona görə ki, evdə ana özü bacarmadığı işi qızına necə öyrədə bilər?.. Bir də müasir analarda nədənsə öyrətmək qabiliyyəti də əvvəlki ana-nənələrdəki kimi deyil. Ya qızlar öyrənmək istəmir, işdən boyun qaçırır, ya da ana bilmir, bu səbəbdən də öyrətmir. Etiraf edək ki, müasir qızlarda da əvvəlki qızlar kimi öyrənmək həvəsi qalmayıb. Bu həvəsi onlardan bəli, müasir texnologiyalar, sosial şəbəkələr alıb. Daha doğrusu bu texnologiya və sosial şəbəkələr qızlarımızın əlindən vaxtı elə alıb ki, onlar bu işləri öyrənmək barədə əsla düşünmür.

Bəs nəticə? Nəticə isə ondan ibarətdir ki, dünənimizə bənzəməyən gənc nəsil yetişir. Xalça, toxuma kimi işlərin necə həyata keçirilməsi barədə anlayışı olmayan nəsil yetişir. Biz özümüz bu nəslin bu formada olmasına şərait yaradanlarıq. Elə məktəblərdən əmək təlimi dərsini yığışdıran bizlər deyilikmi? Bu dərslərdə qızlar kollektiv şəkildə-bir-birinin həvəsinə ən azından iynə saplamağı, sökük tikməyi öyrənirdi. Gələcəkdə ailə qurub, gəlin köçəndə isə özü ilə bərabər bacarıqlarını da yeni evinə aparırdı.

Bu məsələ barədə düşünmək lazımdır. Təhsil Nazirliyi bilməlidir ki, cəmiyyətə tək ali təhsilli olan insan deyil, həm də əməyin nə olduğunu anlayan, kiçik bir işə zəhmət verməyə bacaran insanlar gərəkdir. Odur ki, təhsil sistemində dəyişiklik edilməli, əmək dərsləri yenidən tədrisə daxil olunmalıdır. Bəzi məktəblərdə STEAM sinifləri yaradılıb, burada müasir texnologiyanın sirləri aşılanır, uşaqların yaradıcılıq qabiliyyəti bu dərslər vasitəsilə ortaya çıxarılır. Bu, təbii ki, yuxarı siniflərdə tətbiq olunur. Lakin STEAMaqədər aşağı siniflər əməyin müxtəlif sahələrini əxz etməlidir ki, zamanı gələndə STEAM-ı qavraya bilsinlər.

Biz nə qədər müasir təhsilə yiyələnsək də, unutmayaq, sabah bir evdə-bir ailə içərisində yaşayacağıq və bizim gündəlik həyatımız olacaq ki, hər cür problemlə qarşılaşa bilərik. Bu, bizim üstünlüyümüz, müasirliyimiz olar ki, evimizin də işini bacara bilək. Bir su kranını dəyişmək, nasaz vəziyyətdə olan ütüyə, tozsorana yeni həyat vermək özü bir elmi yaxşı mənimsəməyin nəticəsi deyilmi?

Evin hər hansı tikiş işini qadının özünün həll etməsi necə, bu da bir elmi yaxşı bilməyin nəticəsi deyilmi? Odur ki, birtərəfli yox, hərtərəfli insan olmağa çalışaq. Məhz bu zaman dünənimizlə əlaqəmiz də kəsilməz, həm də gələcəyə əliboş getmiş olmarıq.

**Mətanət Məmmədova**

SƏS
26 dekabr
2025-ci il

# Bayram süfrəsini qurmaq üçün bir ailəyə nə qədər pul lazımdır?



“Qiymətlərin bayram ərəfəsində artmasının bir çox səbəbi var. Lakin əsas və ilk səbəb süni qiymət artımı ilə bağlıdır”. Bu sözləri SİA-ya iqtisadçı ekspert Günay Hüseynova bildirib. Onun sözlərinə görə, hər hansı məhsulun satışını həyata keçirən şəxs bilir ki, qiymət münasib olmasa da, bayramla əlaqədar alıcı bu məhsulu almağa məcbur qalacaq: ”Bu isə süni qiymət artımına şərait yaradır.Digər bir səbəb isə növbəti ildə əməkhaqqı, təqaüd və müavinətlərin artımı ilə əlaqədardır. Bunu öncədən hiss edən satıcılar qiymətləri təxminən 20 gün əvvəl qaldırırlar. Başqa bir səbəb isə mövsümi xarakter daşıyır. Qış fəsli olduğundan bəzi meyvə-tərəvəz məhsulları parnik şəraitində yetişdirilir və ya saxlanc anbarlarında saxlanılaraq hazırda satışa çıxarılır və s. Bu kimi amillər qiymət artımına təsir göstərir.

Qiymət artımı daha çox hansı məhsulları əhatə edir sualına gəldikdə isə, bayramla əlaqədar olan bütün məhsulları. Bəzi məhsullarda artım az, bəzilərində isə daha çox müşahidə olunur. Son illərdə maraqlı bir nüans diqqət çəkir. Belə ki, alıcı bahalıqdan, satıcı isə müştəri qıtlığından gileylənir. Çünki hər bayram ərəfəsində qiymət artımı alıcıları bu adət-ənənədən uzaqlaşdırmağa başlayıb. İnsanlar artıq bayramı evdə deyil, ailə üzvləri ilə birlikdə restoran və kafelərdə qeyd etməyə üstünlük verirlər.

Hazırda bayram süfrəsinin qurulması üçün dörd nəfərlik ailə üçün minimum 250 manat tələb olunur. Bu məbləğdənsə, dörd nəfərlik kabab setinə 65-75 manat ödəmək daha sərfəli hesab edilir. Əvvəlki illərdə qohum-əqrəbanın daha çox toplaşdığı, süfrələrin çeşidli təamlarla bəzədildiyi müşahidə olunurdu. İndi isə nə əvvəlki qohumluq ənənələri qalıb, nə də həmin zəngin süfrələr. Qiymətlərin münasib olmaması, qonaqların azalması, hər kəsin bayramı yalnız öz ailəsi ilə qeyd etməsi və bayramdan sonra yorucu ev işlərinin olmaması bu dəyişikliklərin əsas səbəbləri sırasındadır”.


“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Ərəblər bu qapıçı üçün ”Real”a 90 milyon avro təklif edir!



Madrid ”Real”ının qapıçısı Tibo Kurtua karyerasını Səudiyyə Ərəbistanında davam etdirə bilər. Bu barədə ”Defansa Central” məlumat yayıb. Səudiyyə Ərəbistanının Pro Liqasında mübarizə aparan klublardan biri belçikalı qapıçıya ümumi məbləği 90 milyon avro olan 3 illik müqavilə təklif edib. Bu da o deməkdir ki, qolkiper razılaşsa, illik 30 milyon avro maaş alacaq.

Bildirilib ki, Kurtuanın ”Real”dakı mövqeyi olduqca güclü olaraq qalır. O, bu mövsüm komandanın əsas qapıçısıdır və cəmi 2 oyunu buraxıb. Ümumilikdə, Kurtua cari mövsüm 23 oyunda iştirak edib, 20 qol buraxıb, 10 oyunda qapısını toxunulmaz saxlayıb.

# “Uşaqlarda və hamilələrdə fast-food təhlükəlidir”





“Ev yeməkləri əvəzinə tez-tez fast-food yeməyə üstünlük verilməsinin sağlamlıq üçün zərərləri var”. Bu sözləri SİA-ya açıqlamasında qida mühəndisi, nutrisioloq Fərid Səfərov deyib. Onun sözlərinə görə, fast-food məhsulları adətən yüksək kalori, çox doymuş yağ, şəkər və duz tərkibli olur, amma vitamin, mineral və lif baxımından kasaddır: ”Bu da çəki artımı və piylənmə riskini artırır. Tərkibində trans yağlar, doymuş yağlar və həddindən artıq duz olan fast-food ürək-damar xəstəlikləri riskini yüksəldir. Bu da xolesterinin qalxması, hipertoniya, infarkt və insult riskinə səbəb olur. Fast-food və qazlı içkilər insulinə həssaslığı azaldır, qanda şəkərin tez-tez yüksəlməsinə gətirib çıxarır. Nəticədə 2-ci tip diabet riski artır.

Qida qatqıları və sürətli karbohidratlar iştahanın daha tez artmasına, asılılıq yaranmasına, diqqət və yaddaşın zəifləməsinə səbəb olur. Lifin azlığı qəbizlik, şişkinlik və bağırsaq mikrobiotasının pozulmasına yol açır. Fast-food tez-tez yeyildikdə dəmir, kalsium, maqnezium və B vitaminlərinin qəbulu azalır. Bu isə immunitetin zəifləməsi, saç tökülməsi və sümüklərin zəifləməsi ilə nəticələnir. Xüsusilə uşaqlarda böyümə və inkişafın ləngiməsi, davranış və diqqət problemləri, hamiləlikdə isə dölün inkişafında gerilik fast-foodun çox istifadəsi ilə əlaqələndirilir. Ev yeməkləri isə həmişə üstündür. Daha az duz və yağ tərkibli, təbii və bildiyimiz məhsullardan hazırlanmış yeməklər, balanslı protein-yağ-karbohidrat nisbəti ilə həzmə və metabolizmə daha uyğundur. Təbii ki, balanslı və normasında qidalanmaq şərtilə”.

*Günel Fərzəliyeva*


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000